1.qxd 28.08.2017 10:11 Page 1




Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 08 (5487) | 25 avqust 2017-ci il | Qəzet 1937-ci ildən çıxır | Rayonun ictimai-siyasi qəzeti | Qiyməti 40 qəpik


# Qarşıda duran vəzifələr aydındır

***2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı rayon icra hakimiyyəti başçısının hesabatına həsr olunmuş Şuranın geniş iclası keçirildi***





***Lerik Rayon İcra Hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələrinin, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə "Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasından irəli gələn vəzifələr və 2017-ci ilin birinci yarısında Lerik rayonunda görülmüş işlər, qarşıda duran vəzifələr" barədə Şuranın geniş iclası keçirildi.***

Şura iclasını giriş nitqi ilə açan Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov bildirdi ki, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı qeyd etmişdir ki, hesabat dövründə hökumət qarşısında duran bütün vəzifələr uğurla icra olunmuş, həm bölgəmizdə, həm də dünyada narahatedici məqamlar kifayət qədər çox olsa da, Azərbaycan uğurla inkişaf etmiş, respublikamızda iqtisadi və siyasi sabitlik möhkəmlənmişdir.

Cənab Prezidentin həyata keçirtdiyi uğurlu siyasət nəticəsində Azərbaycanın daha da gücləndiyini və beynəlxalq əlaqələrimizin getdikcə dərinləşdiyini diqqətə çatdıran natiq qeyd etdi ki, ölkə başçısı tərəfindən həyata keçirilən uğurlu iqtisadi reformalar rayonumuzun da sosial-iqtisadi inkişafına ciddi təsir göstərmişdir. Havaların yağmurlu keçməsi səbəbindən və qış aylarında rayonumuzda tikinti-abadlıq işlərinin aparılması mümkün olmadığından, 2017-ci il üçün nəzərdə tutulmuş işlərin həyata keçirilməsinə əsasən aprel ayından başlanılmışdır. Artıq şəhərin su və kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı qazılmış küçə və meydanlarda asfaltlaşma işləri həyata keçirilir. Şəhərdə mövcud olan fəvvarələrdə əsaslı təmir işləri aparılır. Xiyaban və parklarda dağılmış sahələrin bərpası, istinad divarlarının qurulması, işıqlandırma sisteminin yenilənməsi, kommunal binaların bloklarında təmir işləri həyata keçirilir. Hazırda taxıl biçini kampaniyası uğurla davam etdirilir və tütün yığımına başlanılmışdır.

Daha sonra rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikov geniş məruzə ilə çıxış etdi.

Şura iclasında rayon maliyyə idarəsinin rəisi Elman Abbasov, su-kanal idarəsinin rəisi Asif İmanov, təhsil şöbəsinin müdir əvəzi Hicran İbrahimov çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

Şura iclasına yekun vuran rayon icra hakimiyyətinin başçısı qarşıya qoyulmuş vəzifələrlə bağlı aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Şura iclasında qeyd olunan təkliflər və qarşıda duran vəzifələrlə bağlı müvafiq qərar və Azərbaycan Respublikası Prezidentinə müraciət qəbul olundu.

# Şuranın növbəti iclası keçirildi

***Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələrinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Şuranın növbəti iclası keçirildi.***

Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov tədbir iştirakçılarını salamlayaraq Şura iclasının gündəliyində duran məsələlər barədə məlumat verdi.



Sonra "Rayon icra hakimiyyətinin kütləvi informasiya vasitələri, siyasi partiyalar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyətinin təşkilinin vəziyyəti, 2015-2016-cı illərdə və 2017-ci ilin ötən dövrü ərzində qeyri-hökumət təşkilatlarının rayonda keçirdiyi tədbirlər haqqında" rayon icra hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Arzu Vəliməmmədovanın və "Rayonda əkinə yararlı torpaq sahələrindən təyinatı üzrə istifadənin vəziyyəti barədə" rayon icra hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Vüqar Mirzəyevin arayışları dinlənildi.



Şura iclasında "Lerik" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İdris Şükürlü və rayon prokuroru Bəhruz İbrahimov çıxış edərək görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verdilər.

Rayon icra hakimiyyətinin başçısı Şura iclasının gündəliyinə daxil edilmiş məsələlərlə bağlı görülən işlər və qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.



Müzakirə olunan məsələlərlə bağlı Şura iclasında müvafiq qərar qəbul edildi.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov ölkə Prezidenti cənab İlham Əliyevin rayonumuza yüksək qayğı və diqqət göstərdiyini, rayonun sosial-iqtisadi inkişafını təmin etmək, əhalinin məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə bir neçə dəfə sərəncam imzaladığını vurğuladı. Bu ildə cənab Prezidentin dövlət qulluqçularının peşə bayramı günü ərəfəsində imzaladığı sərəncamla uzun illər dövlət qulluğunda səmərəli fəaliyyətinə, rayonun sosial-iqtisadi inkişafında göstərdiyi xidmətlərinə görə rayon icra hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Habil Məlikovun "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edildiyini diqqətə çatdırdı, bunu rayonun bütün ziyalılarına verilən qiymət olduğunu qeyd etdi.

Rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov "Dövlət qulluğunda fərqlənməyə görə" medalı və vəsiqəni Habil Məlikova təqdim etdi.

# Tütünçülük inkişaf etdirilməlidir



Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Qax şəhərində keçirilmiş barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışından irəli gələn vəzifələrlə əlaqədar ümumrayon müşavirəsi keçirildi.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov müşavirəni açaraq cənab Prezident İlham Əliyevin işləyib hazırladığı uzaqgörən inkişaf strategiyası nəticəsində son illərdə Azərbaycanda dayanıqlı və davamlı iqtisadi inkişafın daha da sürətləndiyini, ölkəmizin regionda siyasi, iqtisadi və mədəni mərkəzə çevrildiyini bildirdi. Qax rayonunda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində adı çəkilən sahələrin inkişaf etdirilməsi ilə bağlı görülən işlər, gələcəkdə görüləcək işlərə dair cənab Prezident tərəfindən verilmiş tapşırıqları müşavirə iştirakçılarının diqqətinə çatdırdı. Eyni zamanda rayonda bu istiqamətdə görülmüş işlər, aqrar sahənin inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi üçün aparılan işlər barədə məlumat verdi.

Bildirdi ki, son illər cənab Prezidentin tapşırığı ilə rayonumuzda torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işləri genişləndirilmiş, kənd təsərrüfatının gəlirli və ən əsası, əməktutumlu sahələrindən biri olan tütünçülüyün üstünlükləri onlara ətraflı izah olunmuşdur. Bunun nəticəsi olaraq 2016-cı ildə ilk olaraq 10 hektar torpaq sahəsində tütün əkildi. Bu tədbirin həyata keçirilməsi hesabına 50 nəfərdən çox vətəndaş daimi və mövsümi işlə təmin edildi.

2017-ci ildə isə tütün əkini sahələri artırılaraq 25 hektara çatdırılmış, hal-hazıradək 5,4 ton yaş tütün yarpaqları yığılaraq Yardımlı rayonunda yerləşən qurutma sexinə təhvil verilmişdir. "İmmuna" sortu əkən mülkiyyətçilər tərəfindən yarpaqların yığılmasına başlanılmışdır.

Bundan başqa cari ildə rayonumuz üçün ənənəvi olmayan fındıqçılığın inkişaf etdirilməsi ilə



bağlı da müəyyən işlər aparılmışdır. Sahibkarlar tərəfindən qonşu Zaqatala, Balakən və Qəbələ rayonlarından rayonumuza 60 minə yaxın fındıq tingi gətirilmiş və 50 hektardan yuxarı sahədə fındıq tingləri əkilmişdir. Ancaq həmin tinglərə düzgün aqrotexniki qaydada qulluğun göstərilməməsi və suvarma suyunun çatışmaması nəticəsində bir hissəsi məhv olmuşdur. Payız mövsümündə yanmış tinglərin bərpa olunması istiqamətində işlər aparılacaqdır.

Natiq qeyd etdi ki, ölkə başçısı cənab İlham Əliyevin müşavirədəki proqram xarakterli çıxışından irəli gələn vəzifələrin icrasından ötrü cavabdeh təşkilatlar və məsul şəxslərlə yanaşı, bütün rayon ictimaiyyətinin səyi səfərbər olunmalı, planlı iş qurulmalı, sahibkarlara lazımi köməklik olunmalıdır.

Rayon icra hakimiyyəti başçısı aparatının sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Vüqar Mirzəyev, Kənd Təsərrüfatı İdarəsinin müdiri Mahmud Zahidov, təcrübəli tütünçülər Mirzəmməd Salayev və Gəray Qənbərov çıxış edərək rayonda tütünçülüyün genişləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində fikir və mülahizələrini bildirdilər.

# Vətəndaşlar qəbulda diqqətlə dinlənildi

***Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasının qəbul otağında rayon icra hakimiyyəti başçısı tərəfindən rayonun aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə vətəndaşların qəbulu keçirildi.***



Ümumilikdə rayon icra hakimiyyəti başçısı tərəfindən 43 nəfər vətəndaş qəbul olunaraq dinlənildi.

Qəbul edilmiş vətəndaşlar əsasən müvafiq işlə təmin olunmalarına, maddi yardım göstərilməsinə, ev təmiri və tikintisinə, torpaq məsələləri, kəndara avtomobil yollarının və elektrik xətlərinin təmirinə, su probleminin həllinə, ünvanlı dövlət sosial yardımının təyin edilməsinə köməklik göstərilməsini xahiş etdilər.

Vətəndaşlar tərəfindən qaldırılan problemlərin həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi, həlli mümkün olan təkliflərin icrasına köməklik göstərilməsi, müraciətlərinin araşdırılması və icrası ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

1.qxd 28.08.2017 10:11 Page 2



Yeniliyi şərh edirik

# Lerikdə ilk dəfə olaraq müasir tipli içməli su və kanalizasiya sistemi yaradılır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Gədəbəy şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə dövlətimizin başçısı çıxış edərkən demişdir: "Azərbaycan beynəlxalq arenada çox ləyaqətli ölkə kimi tanınır. Ölkəmizin bütün regionlarında sürətli inkişaf gedir. Beləliklə, ölkəmizin bu günü və gələcəyi üçün heç bir problem görmürəm, heç bir risk, təhlükə yoxdur. Azərbaycan çox təhlükəsiz ölkədir, əhalimiz sülh, əmin-amanlıq şəraitində yaşayır və gələcək inkişaf üçün də yaxşı perspektivlər var".**

Prezident İlham Əliyev Gədəbəy rayonunun iqtisadi potensialının günü-gündən artmasından danışıb və içməli su probleminin əsaslı şəkildə öz həllini tapmasından xüsusi olaraq danışaraq demişdir: "...Su həyat deməkdir. Təmiz su isə sağlam həyat deməkdir. İndi Azərbaycanda içməli su layihələrinin icrası geniş vüsət alıb. Bir çox rayonda bu layihələr artıq istifadəyə verilib. İndi icra ediməkdə olan layihələr kifayət qədər çoxdur. Bir sözlə, qarşıya vəzifə qoyulmuşdur ki, bu problem Azərbaycanın bütün bölgələrində öz həllini tapsın və Azərbaycan əhalisi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunsun".





Lerik şəhər camaatı uzun illər idi ki, sudan böyük əziyyət çəkirdi. İnsanlar müxtəlif mənbələrdən müxtəlif vasitələrlə su daşımağa məcbur idilər. Köhnə su xətlərinin, Monidigah çayından su nasos stansiyasındakı mühərriklərin tez-tez sıradan çıxması əhalinin su təchizatında fasilələrə gətirib çıxarırdı. Bu iş hökümət səviyyəsində öz həllini tapmalı idi. Layihəyə əsasən Lerik şəhərinin içməli su mənbəyi olaraq Zuvanddakı kəhriz sularından qidalanan çayın suyu seçildi və suqəbuledici qurğu tikildi. Öz təbii axını ilə yerə basdırılmış yeni plasmas boru kəməri vasitəsi ilə həmin su mənbədən Lerikə axıdıldı. Su kəməri tikintisi minlərlə manat vəsaitə qənaət etməyə imkan verdi: çünki elektrik motorları vasitəsilə hərəkətə gələn su nasoslarına ehtiyac qalmamışdı. Lakin Türkiyənin "Gəlişim" şirkətinin 1912-ci ildən başladığı iş yarımçıq qalmışdı. Bəs nə etməli? Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə layihəni həyata keçirməyi və qısa zamanda başa çatdırmağa Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə 2-ci layihənin həyata keçirilməsi üzrə işçi qrupunun rəhbəri Ayaz Qəhrəmanova tapşırıldı.



Lerik şəhərində içməli su və kanalizasiya sisteminin sürətlə, keyfiyyətlə və texnologiyaya uyğun olaraq yenidən tikintisi bir ay ərzində tamamlanacaqdır.

İçməli su şəbəkəsi və içməli su qulrğuları, çirkab su kanalizasiya xətləri və çirkab su kollektoru və çirkab sutəmizləyici qurğuların tikintisində tamamlama işləri görülür. Lerik şəhərində köhnə sutəmizləyici qurğunun yerində müasir tipli, texniki şərtlərə cavab verən içməli su qurğusunun inşasında son tamamlama işləri həyata keçirilir. İçməli su qurğuları deposu hazır vəziyyətdədir. Velaçola adlanan yerə yaxın ərazidə çirkab sutəmizləyici qurğunun tikintisində 60 faizdən çox iş görülüb. Bura zərbəçi əmək meydanını xatırladır. "Körpübinatikinti" Məhdud Məsuliyyətli Cəmiyyət bu tikintini normativə, layihəyə uyğun inşa edir.



Biz tikintidə olarkən ahəngdar işin şahidi olduq. İsti olmasına baxmayaraq, ekskavator və yükünü özüboşaldan maşınların sürücüləri, qaynaqşılar, qəlibçilər, kipləşdiricilər, fəhlələr iş başında idilər, tapşırıqları icra etməyə çalışırdılar. Axı, bu nəhəng və zəruri tikintini vaxtında başa çatdırmaq bir nömrəli vəzifədir.

*...Su həyat deməkdir. Təmiz su isə sağlam həyat deməkdir. İndi Azərbaycanda içməli su layihələrinin icrası geniş vüsət alıb. Bir çox rayonda bu layihələr artıq istifadəyə verilib. İndi icra ediməkdə olan layihələr kifayət qədər çoxdur. Bir sözlə, qarşıya vəzifə qoyulmuşdur ki, bu problem Azərbaycanın bütün bölgələrində öz həllini tapsın və Azərbaycan əhalisi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunsun.*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

Tikintinin sahə rəisi Anar Zamanovla tanış olduq. Savadlı və bacarıqlıdır, gənc olmasına baxmayaraq yüksək təşkilatçılıq qabiliyyətinə malikdir.

Anar Zamanov mühəndis və sürücülər, texniki işçilərin məhsuldar işləməsi, gigiyenası, qidalanması üçün yaxşı şərait yaradıb. Onlar yataqxana ilə təmin olunublar. Kollektivdə xoş əhval-ruhiyyə hökm sürür. Bütün bunlar deməyə əsas verir ki, inşaatçı və quraşdırğıcıların hədəfə çatmasına çox qalmayıb...

"Körpübinatikinti" MMC-nin direktoru Xəlil Göyüşov təcrübəli mütəxəssisdir, işçi heyətin gücünə, bacarığına yaxşı bələddir. Ona görə də hamı məhsuldar işləyir, boşdayanmaya yol verilmir. Ən əsası, layihədə nəzərdə tutulan bütün işləri vaxtında və keyfiyyətlə başa vurmaq üçün nəzarətçi Vaqif Fərziyev tikintinin gedişi ilə bizi tanış etdi. Hər bir qurğuda görülən işə, burada çalışanların fəaliyyətinə xırda detallarına qədər bələddir. Əsası da yerli şəraiti yaxşı bilir, təcrübəli mütəxəssis kimi hamının hörmətini qazanıb. Bəlkə də Lerikdə layihənin həyata keçirilməsinə daha çox Vaqif Fərziyev sevinir...



İçməli su və çirkab sutəmizləyici qurğuların tikintisində ekskavatorçulardan Fariz Gülmirzəyev, Anar Vəliyev, Rizvan Əliyev, yükünü özüboşaldan yük maşınlarının sürücülərindən Yusif Şirinov, Rəhim Mikayılov, Əlizamin Kərimov, Qabil Əliyev, kipləşdirici Ruslan Əkbərov, betondaşıyan maşının sürücüsü Rizvan Əhmədov, beton hazırlayan .qurğunun operatoru Tale Əlieyev, operator köməkçisi Nazim Tapdıqov, qəlibçi və dəmirçilərdən Nemət Məhərrəmov, Tofiq Səfərov, İxtiyar Həsənov, Şahvəli Həsənov, qaynaqçı Azad Azadov, işgüzar fəhlələrdən Aslan Rzayev, Leysan İbrahimov, Etibar Hüseynov, Şakir Ağayev, Famil Poladov, Şakir Ağayev həm işləyib çörək qazanır, həm də Lerikin tarixində ilk dəfə həyata keçirilən layihədə nəzərdə tutulmuş işlərdə əllərinin hərarəti, gözlərinin nuru, ayaq izləri qalır.

Çox keçməz ki, haqqında söhbət açdığımız həcmcə iri, mahiyyətcə əvəzedilməz layihənin icrası başa çatdırılacaq, leriklilər Prezident İlham Əliyevə, layihəni icra edənlərə, mühəndis, texnik və işçi heyətinə minnətdarlıq ifadə edəcək, leriklilər könül xoşluğu ilə onlara göstərilən xidmətdən istifadə edəcəklər.

***İdris ŞÜKÜRLÜ,***
***Azərbaycanın Əməkdar jurnalisti***

# "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə"

Lerik Rayon İcra Hakimiyyətinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda rayon Mədəniyyət Mərkəzində rayon icra hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyevin, rayonun hüquq-mühafizə orqanlarının rəhbərlərinin, din xadimlərinin, məscid dini icma sədrlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə konfrans keçirildi.

Konfransda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, komitənin Lənkəran regional şöbəsinin müdiri Qağayı Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə iştirak edirdi.

Konfransı açan rayon icra hakimiyyəti başçısının birinci müavini, dini məsələlər üzrə komissiyanın sədri Cəlil Baxşıyev qonaqları salamlayaraq son illər rayonda mövcud dini durum və bu sahədə görülmüş işlər barədə ətraflı məlumat verdi. Bildirdi ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulmuş, multikulturalizmin dövlət siyasətinə çevrilmişdir. Son illər Prezident cənab İlham Əliyevin 2016-cı ilin "Multikulturalizm ili" onun məntiqi davamı kimi 2017-ci ilin isə "İslam həmrəyliyi ili" elan edilməsi haqqında Sərəncam imzalaması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsi olduğunu vurğuladı. Məhz bu siyasət nəticəsində ölkəmizdə müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bütün dünyaya İslamın sülhə, mehribançılığa, həmrəyliyə xidmət edən bir din olduğunu bir daha nümayiş etdirdiyini diqqətə çatdırdı.



Sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda geniş məruzə etdi.

Komitə sədri Azərbaycanda bütün dinlərə bərabər münasibət göstərildiyini qeyd edərək ölkəmizdəki multikultural və tolerant mühitin bütün dünyada müasir və mütərəqqi model kimi qəbul edildiyini diqqətə çatdırdı. Tarix boyu müxtəlif qüvvələrin müsəlman dünyasının birliyinə mane olmağa çalışdığını vurğulayan natiq bu işdə hər bir müsəlmanın təşəbbüskar olmasını bildirdi. Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özünü ehtiva etdiyini vurğuladı. İslam həmrəyliyinin təbliğinin başlıca istiqamətləri barədə dini icma sədrlərinə tövsiyələrini verdi, onları ölkəmizdə İslam həmrəyliyinin təbliğində fəal olmağa çağırdı.

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin cənub bölgəsi üzə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə, rayon sakinləri Akif Tagıyev, Hüseynbala Əliyev və "Uzunömürlülər" muzeyinin direktoru Dilarə Fətullayeva çıxış edərək rayonda tam dini sabitliyin olduğunu, ölkəmizdəki dünyaya nümunə olan tolerantlıq mühitinin qorunması məqsədilə dini mühitdəki radikal elementlərin, qeyri-ənənəvi dini cərəyan və təriqətlərin məscidlərimizə, dini ibadət evlərinə təsirinin qarşısının alındığını və bu istiqamətdə görülən işlərin daim nəzarətdə saxlanıldığını qeyd etdilər.



Heydər Əliyev Mərkəzində gənclərin iştirakı ilə keçirilən konfransın panel iclasında "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusunda müzakirələr aparıldı.

İclasda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, komitənin Dini maarifləndirmə şöbəsinin müdir müavini Ruslan Əsgərov, Dini ekspertiza şöbəsinin müdir müavini Cahandar Əlifzadə, Lerik Rayon Gənclər və İdman İdarəsinin müdiri Natiq İsaqov və Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı Rafiq Əzizov çıxış edərək qeyd etdilər ki, tədbirin keçirilməsində məqsəd dini radikalizmlə mübarizə aparmaq, dindarlar, xüsusilə gənclər arasında Azərbaycanda mövcud olan dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqidir.

1.qxd 28.08.2017 10:12 Page 3



# Prezident İlham Əliyevin sərəncamları icra olunur

## Lerikin kənd yolları görkəmini dəyişir

***Azərbaycan Prezidenti İlham Əliyev yol infrastrukturunun yenidən qurulmasına böyük önəm verir. Təkcə Bakı və Bakıətrafı rayonların deyil, digər böyük şəhərlərin, bölgələrin yolları, körpüləri və avtomobil ötürücü qurğuları dünya standartları səviyyəsində və müasir görkəmdə, yüksək keyfiyyətlə tikilir və əhalinin istifadəsinə verilir. Məsafələr qısalır, vaxta qənaət olunur, adamlar mənzil başına rahatlıqla və tez çatırlar.***

Yol iqtisadiyyatın şah damarı, arteriyasıdır. "Lerik rayonunun Noda-Şinqədulan-Xanəgah avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə tikilən 30 min nəfər əhalinin yaşadığı 50 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun tikintisi 2013-cü ildən həyata keçirilir. Həmin ildə bu yolun tikintisinə 2 milyon manat, 2014-cü ildə 7 milyon manat, 2016-cı ildə isə 6,6 milyon manat vəsait ayrılmışdır.





Lerik RİH başçısının müavini, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri



Habil Məlikov deyir ki, yolun 18 kilometri istifadəyə verilmişdir. Hazırda Xanəgah-Zenonu yolu istiqamətində tamamlanmamış işlər başa çatdırılır, körpülər, yolötürücü qurğular tikilir. Xanəgah kəndindən başlanan yola asfalt döşənir.

Artıq 4 kilometr yola asfalt çəkilmişdir.

Biz 50-ci kilometrdən Xanəgah kəndinə qədər Mütəllim Ruhullayevin idarə etdiyi "Volvo" markalı ağır tonnajlı yük maşını ilə getdik. Hava bürkülü olsa da kabinada kondisioner işlədiyindən sərinlik idi. Enişli-yoxuşlu yollarda maşını ehtiyatla idarə edirdi. Söhbət edə-edə qızğın iş gedən yola vaxtında çatdıq. İlk dəfə olaraq Xanəgahdan Bülüdül kəndinə dönən yolu çox rahat, geniş və müasir görkəmdə gördük. Mən əvvəlki illərdə avtomobillə bu yollarla hərəkət etmişdim. Çox narahat və darısqal, kələ-kötür olduğundan bu yollar məni möhkəm yormuşdu. İndi, budur, xarici ölkələrdə çəkilən yolla müqayisə edilə bilən yol qarşımızda, ayaqlarımızın altındadır, könül xoşluğu yaradır, göz oxşayır.

Biz asfalt döşənən yola çatdıqda tanış simaları gördük. 50-ci kilomşetr - Şingədulan yoluna da onlar asfalt örtük çəkmişdilər. İlk növbədə Lənkəran asfalt-beton zavodundan asfalt-beton daşıyan sürücüləri oxuculara təqdim etmək istəyirik. Onlar əsl fədakarlıq nümunəsi göstərir, hər bir çətinliyə dözür, gündəlik tapşırıqların, normaların öhdəsindən bacarıqla gəlirlər. Təcrübəli sürücülərdən Mütəllim Ruhullayev, Qalası Şirəliyev, Vəfa Hüseynov, Ariz Əhmədov, Natiq Səfərov, Müzəffər Şabanov demək olar ki, bu yollara həyat verənlərdir. Yəni onlar ağır yükgötürən maşınlara asfaltı vaxtında çatdırır, imkanlardan səmərəli istifadə edirlər. Su maşınının sürücüsü Adil Qurbanov



yolçəkənlərin xidmətindədir.

Asfaltkipləşdirici Samir Bahadurlunu nə isti, nə də yük maşınlarının bir-birinin ardınca gəlməsi qorxudur, o, teknikanı mükəmməl idarə edir. Asfaltdöşəyən Çingiz Məlikov, fəhlələrdən Raqib Əhmədov, İlqar Şükürlü, Gündüz Ağayev, Elşad Usubov asfalt yol çəkməkdə ad çıxarıblar. Fuad Kazımlı və Ağarəhim Muxtarzadə işin keyfiyyətlə görülməsinə ciddi nəzarət edirlər. Onların əsas məqsədi 17 kilometr yolun tikintisini vaxtında başa çatdırmaqdır.

Mühəndis və yol ustaları işin keyiyyətinə xüsusi diqqət yetirir, hər şeyə nəzarət edirlər.

Yeni yolun 47 saylı Yol-İstismar İdarəsi tərəfindən ustalıqla çəkilməsi, yerli ekoloji mühitə davamlı tikilməsi çox müsbət haldır. Biz yolçəkənlərlə iş başında görüşərkən öyrəndik ki, yolda, suyun axması üçün təqribən 30 yerdə iridiametrli dəmir-beton borular, bloklar qoyulub. Osiodərə kəndində çayın üzərində 2 yerdə körpünün tikintisi tezliklə başa çatdırılacaqdır. Sentyabr ayında yolun tikintisini başa çatdırmaq nəzərdə tutulur. Eyni zamanda 50-ci kilometr-Şingədulan-Zenonu yolunun təmir edilməsi də nəzərdə tutulur.

Əlbəttə, Prezident İlham Əliyevin dağ kəndlərinə, əhalisinə göstərdiyi diqqət və qayğısından söz açmaq bir yazıya sığmaz. Əsas məsələ budur ki, Prezidentin sərəncamları uğurla icra olunur. Hər bir azərbaycanlının Prezidenti olan İlham Əliyevin vədlərinə sözdə deyil, işdə əməl etməsi onu hamının nəzərində daha da ucaldır.

***İdris ŞÜKÜRLÜ***

**Redaktordan**

# Tütünçülük inkişaf etdirilsə, əhalinin məşğulluğu artar, sosial rifahı yaxşılaşar

***Azərbaycan Respublikasının Prezidenti kənd təsərrüfatında ənənəvi sahələrin inkişafı istiqamətində verdiyi tapşırıqlar uğurla icra edilir. "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında ölkə rəhbərinin 10 avqust 2017-ci il tarixli sərəncamı da məhz bu sahələrdən birinin - tütünçülüyün dirçəldilməsi, tütün emalının dərinləşdirilməsi, gəlirliliyin və ixrac potensialının artırılması, kənd əhalisinin məşğulluğunun yüksəldilməsi məqsədi daşıyır. Strateji Yol Xəritəsində də tütünçülüyün inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, tütün istehsalına marağın artırılması qarşıya mühüm vəzifə kimi qoyulub.***



Düzdür, son 20 ildə bəzi ənənənvi kənd təsərrüfatı sahələrində, eyni zamanda tütünçülükdə də tənəzzül nəzərə çarpıb. Ölkə başçısı son çıxışlarının birində bu barədə deyib: "Uzun illər diqqətdən kənarda qalan tütünçülük çox gəlirli sahədir və hökumət bu sahənin inkişaf etdirilməsi üçün ciddi tədbirlər görür. Biz tütünçülüyü bərpa edəcəyik. Ənənəvi bölgələrdə tütünçülüklə məşğul olanlar da buna hazır olsunlar, dövlət öz dəstəyini verir, verəcək. Eyni zamanda, tütünün alınması üçün dövlət öz dəstəyini göstərməlidir və göstərəcəkdir". XX əsrin 70-ci illərinin başlanğıcında uğurlu aqrar islahat nəticəsində Azərbaycanda tütünçülük çox sürətlə inkişaf etdi. 1970-1980-ci illərdə tütün əkini sahəsi 17 min hektar, istehsalın həcmi isə 60 min tondan çox olub. 2016-cı illə müqayisədə bu çox böyük rəqəmdir: tütün əkini sahəsi 2,4 min hektar, istehsal həcmi isə 3,6 min ton təşkil edib ki, bu da sahənin potensial inkanlarından xeyli aşağıdır.

Dövlət Proqramında 2021-ci llədək orta məhsuldarlıq 20 sentner hektar olmaqla, əkin sahələrinin 6 min hektara, tütün istehsalının 12 min tona çatdırılması əsas hədəf kimi götürülüb. Tütün istehsalçılarına təhvil verilən quru tütünün hər 1 kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə 0,05 manat məbləğində subsidiya müəyyən edilib.

Ölkənin dağlıq və dağətəyi rayonlarının torpaq-iqlim şəraiti tütün sənayesinin tələbatına uyğun keyfiyyətli məhsul yetişdirilməsinə və istehsal olunmasına imkan verir. Belə rayonlardan biri də Lerik rayonudur. Rayonda 80-ci illərdə dövlətə 300 ton quru tütün təhvil verilib. Bu Lerikin iqtisadiyyatına müsbət təsir göstərib. Lakin 90-cı illərdə tütünçülük arxa plana keçib. Tütünçülərin bu gəlirli sahəyə marağı azaldı. Lerik şəhər mərkəzində fəaliyyət göstərən yeganə tütün qəbulu məntəqəsi bərbad vəziyyətə düşüb. Prezidentin qəbul etdiyi Sərəncam qeyri-neft stktorunun əsas sahələrindən biri olan tütünçülüyün inkişaf etdirilməsini zəruri etmişdir. Rayonun 18 ərazisində məhsul istehlakçıları tərəfindən 25 hektarda tütün əkilmişdir. Bunun 12 hektarı "Verciniya", 13 hektarı isə "İmmuna" növlü tütündür. Vizəzəmin, Osiodərə, Züvüc, Əliabad, Nüvədi ərazilərində tütün əkini və istehsalı yaxşı təşkil edilmişdir. Söz yox ki, cücəni payızda sayarlar, deyiblər atalar. Tütünçülük inkişaf etdirilsə, əhalinin məşğulluğu, pul gəliri, nəticədə rifahı yaxşılaşar. Bu gəlirli sahəni inkişaf etdirmək həm də rayonun iqtisadiyyatını qaldırmağa mühüm təsir göstərəcək.

# İdman ustası Rəşadın gələcəyi parlaqdır




Rəşad Elnur oğlu Qarayevi oxuculara təqdim etmək istəyirik. Rəşad barədə ağsaçlı babası Xureyman kişi bizi məlumatlandırmışdı. Tez-tez Rəşaddan söhbət açır, onun idman uğurlarından danışırdı. Rəşadın vətənpərvərliyi, Azərbaycanın idman sahəsində qazandığı uğurları diqqətlə izləməsi bizi sevindirdi. Onu 15 yaşına qədəm qoyması müçnasibətilə təbrik etdik.

Rəşadla babası Xureyman Qarayevgildə görüşdük. Sağlam, sən və nikbin görünürdü. O, idmançılara məxsus tərzdə bizə qısa, konkret cavab verirdi. Son illərdə Azərbaycanda baş tutan mötəbər idman yarışlarından, idmançılarımızın qazandığı uğurlardan Prezident İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğıdan ruhlandığını bildirdi.

Öyrəndik ki, Rəşad Qarayev zabit atası Elnurun xidməti vəzifəsi ilə əlaqədar Rusiyanın Krasnoyarsk vilayətində yaşayır. Öncə əlbəyaxa döyüşdə özünü sınayıb. Sonra isə sərbəst güləş üzrə yarışlarda iştirak edib. Əvvəlcə yaşadığı ərazidə uğurlara nail olub. Medalla və fəxri fərmanlarla təltif olunub. Məşqçisi Aleksandr Baxov daha çox sevinib, onu yeni qələbələrə ruhlandırıb.

- Eşitdik, "İdman ustası" adına layiq görülmüsünüz. Bu barədə vilayət qəzetləri yazmlışdılar...

Rəşad deyir:

- 2017-ci ildə Anapa şəhərində sərbəst güləş üzrə 55 kiloqram çəkidə yarış keçirildi. Yarışa hazırlıqlı qatılmışdım. Cəhdlərim uğurla nəticələndi. Vilayət birinciliyində rəqibimə qalib gəldim, birinci yeri tutdum. İdman naziri məni fəxri fərman və medalla təltif etdi. "İdman ustası" adına layiq görüldüm, vilayətin yığma ko-




mandasına daxil edildim.

- Bunu ən yüksək zirvə hesab edirsinizmi?

- Ən yüksək zirvə irəlidədir, çatmadığımız zirvədir. İdmançı qətiyyəti, dözüm, mükəmməl məşq, qarşıdakı rəqibin gücünü və fəndini qiymətləndirmək bacarığı əsas şərtlərdən sayılır.

- Sizə idman sahəsində, eləcə də təhsildə uğurlar arzulayırıq.

***Zəfər ƏLİYEV***

# Lerikdə şagirdlər üçün qonaqpərvərlik mövzusunda təlim




Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək İctimai Birliyinin (AHTTSA) QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə reallaşdırdığı "Yeniyetmələr arasında bölgə turizminin inkişafının təbliği və onlarda turizm yönümlü peşələrə həvəsin stimullaşdırılması" layihəsi çərçivəsində daha bir tədbir iyulun 6-7- də Lerik rayonundakı "Relax" istirahət mərkəzində həyata keçirilib.

İctimai birlikdən verilən məlumata görə, layihəyə Sumqayıt şəhərindən əlaçı şagirdlərdən ibarət 30 nəfərlik heyət və Lerik rayonunun orta məktəb şagirdləri cəlb olunub.

"Turizm və qonaqpərvərlik" mövzusunda təşkil edilən təlimlər şagirdlərdə böyük maraq oyadıb. Onlara Azərbaycan Turizm və Menecment Universitetinin , Bakı Turizm Peşə Məktəbinin tədris nəşrləri, turizm haqqında elmi məqalələr toplusu və turizm terminlərinə dair vəsaitlər paylanılıb.

Təlimin son günü Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Milli Məclisin deputatı İqbal Məmmədov və Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək İctimai Birliyinin sədri Ruslan Quliyev şagirdlərə diplom və fəxri fərmanlar təqdim ediblər. Səfər müddətində şagirdlər arasında maraqlı intellektual idman oyunları keçirilib. Sumqayıt yeniyetmələri həmçinin, Lerikdəki Heydər Əliyev Mərkəzi, Uzunömürlülər və Tarix- diyarşünaslıq muzeylərinə ekskursiyalarda iştirak ediblər.

1.qxd 28.08.2017 10:12 Page 4



# Kaş sonuncu şəhid olaydı...




İlkin Oqtay oğlu Babayev 1998-ci ilin noyabr ayında Murya kəndində dünyaya gəlib. Ağdam rayonundakı hərbi hissənin 12-ci bölüyünün 2-ci manqasında atıcı idi. Yaxşı əsgər olduğuna görə məzuniyyətə buraxılmışdı. Erməni vəhşiliyi nəticəsində şəhid olmuşdur.

İlkin Lerikin sonuncu şəhididir. Onun redaksiyamıza təqdim edilmiş şəkli üzərində yazılıb: "Sənə ancaq belə gözəl ölüm yaraşır, şəhidim".

Biz isə deyirik: Ölümün gözünə dik baxdın, şəhidim. Sənə yaşamaq, qələbə gününü görmək yaraşır. Ölüm sənə necə qıydı?

**Gələn sayımızı izləyin, İlkin barədə oçerk verəcəyik.**

# Şəhidlər haqqında elegiya

## Söhbət and ucalığına yüksələn kitabdan gedir

***Şəhidlik Tanrı məqamıdır. Cənnətə sorğu-sualsız daxil olan şəhidlərimiz Vətənin bir parçasından yaranmışdır. Sonda da müqəddəs amallar uğrunda qurban gedən şəhidlərimiz Vətənin topağına qovuşmaqla işıqlı dünyanı tərk edirlər. Misli-bərabəri olmayan, min bir nemət bitirən, ana qucağı tək bizə əziz olan, ulu babalardan bizə əmanət qalan torpaq onları çox istədiyindən ömrün ən təravətli çağında öz ağuşuna alıb. Şəhidlər torpağa qovuşmaqla dəyərini daha da artırıblar, ölümsüzlük qazanıblar...***

üstündə yağılar at oynatmasınlar, çünki bu torpağın sahibi var, yeri gələndə onlar Vətəni öz həyatları bahasına qoruyurlar!.. Bu, şəhidliyin ali məqamıdır. Onları bizə sevdirən də bu qeyrət və cəsarət, mərdlik və hünərdir. Eşq olsun torpağı canından çox istəyən şəhidlərə!

Kitab "Şəhidlik elə zirvədir ki..." yazısı ilə açılır. Müəllifi Balaşirin Nəsirov yazır: "Respublikanın Əməkdar jurnalisti, yazıçı İdris Şükürlü Qarabağ müharibəsinin qəhrəmanlarına həsr olunmuş "Ölsəm, inanma", "Ömür çırağı sönmədi", "Adsız qəhrəman", "Bədənində dəfn etdilər ölümü" kitablarının müəllifidir. O, bu kitablarda şəhidlərimizin, cəsur əsgər və zabitlərimizin cəbhədə göstərdikləri qəhrəmanlıqlar, onların vətənpərvərlik ruhu, qələbəyə böyük inam hissini ustalıqla qələmə almışdır. Bu kitablar gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində, dövlətçiliyə sədaqət, düşmənə nifrət hissinin gücləndirilməsində, Vətən, yurd sevgisində böyük əhəmiyyətə malikdir. Lerikli şəhidlərə həsr etdiyi kitabında İdris Şükürlü şəhid oğullarımızın qəhrəmanlığına, şücaətinə güzgü tutur, onların yüksəkliyinə, zirvənin ucalığına, müqəddəsliyinə diqqəti cəlb edir, ölümün gözünə dik baxan igidlərimizə söz abidəsi ucaldır. İllər ötdükcə bu yazılı abidə əldən-ələ gəzəcək, şəhidlərimiz barədə məlumatı hər gələn nəslə çatdıracaq".

İdris Şükürlünün şəhidlərə həsr olunmuş növbəti kitabında çap olunmuş oçerk, məqalə, esse və şeirlər, fotoşəkillər mərd və mübariz əsgərlərin qısa, lakin çox dəyərli həyat yoluna bələdçilik edir, onları oxucuya tanıtdırır, gənc nəslə təqdim edir. "Oğul verib dərdə salan dünyadı", "Qoru Vətəni", "Güllə də diksindi baxışlarından", "Əlvida demədi bu xoş həyata", "Namaz Muradov zirvə qartalı idi", "Sonuncu şəkil", "Valehin yarımçıq albomu", "Şəhidlər ölmür", "Qarabağ mübarizləri", "Vətən səni unutmur", "Ömrün qönçə çağında", "Şəhid oğulları Vətən yaşadır" və s. oçerkləri həyəcansız oxumaq mümkün deyil. Bu yazılar Vətənə məhəbbətin, vətənpərvərliyin real həyatda təcəssümüdür.







Yurdun haqq savaşına şirt ək atılan, döyüşdən-döyüşə bərkiyən, "Vətəndən, torpaqdan, namusdan pay olmaz" deyən şəhidlər bu yurd, bu torpaq, bu Vətən yaşasın deyə canlarını qurban verdilər. Ər biləkli, şir ürəkli, saf diləkli oğullara - lerikli şəhidlərə həsr olunmuş **"Bədənində dəfn etdilər ölümü"** adlı kitabı - şəhidlər haqqında elegiyanı qələmə alan tanınmış yazıçı-jurnalist İdris Şükürlü yazır ki, şəhidlərin göyərən məzarları, nigaran ruhları, mərminin şumladığı Vətən torpaqları, atasız böyüyən şəhid uşaqları qisas gününü gözləyirlər.

"Bədənində dəfn etdilər ölümü" kitabının adından başlayaq. Vətən fədailəri razı olmurlar yurdun dağına, daşına, gülünə, çiçəyinə, torpağın köksünə güllə, mərmi dəysin, torpağın ruzi-bərəkət yetirən pak sinəsi yaralansın, ona düşmənin murdar əli toxunsun, Vətən bölünməsin,

Bütövlükdə, kitab barədə söz açmaq, hər bir yazını geniş təhlil etmək imkan xaricindədir. "Bədənində dəfn etdilər ölümü" kitabı yazıçı-jurnalist, ali media mükafatlarına layiq görülmüş təcrübəli mətbuat işçisi İdris Şükürlünün lerikli şəhidlərə həsr etdiyi fərqli qələm məhsulu adlandırmaq olar. Kitabda öz əksini tapmış fotoşəkillər, illüstrasiyalar, digər köməkçi materiallar oxucularda müsbət təəssürat oyadır, onların zövqünü oxşayır.

İnanırıq ki, İdris Şükürlünün ilhamla, ürək yanğısı ilə qələmə aldığı publisistik əsərlər yaddaşlarda dərin iz buraxacaq, şəhidlərə həsr edilmiş söz abidəsi kimi yaddaşdan-yaddaşa köçəcəkdir.

***İltimas Səmimi,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, şair***

# Arxeoloji tapıntılar 2500 il bundan əvvələ aid edilir

Bizi izləyin





AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun alimləri xarici ölkələrin mütəxəssisləri ilə birgə xeyli vaxtdır ki, Lerik rayonunun ərazisində arxeoloji kəşfiyyat işləri aparırlar. Gürdəsər kəndindəki Pipoz adlanan təpədə tapılan məzarlığın 2500 il bundan əvvələ aid olduğu müəyyən edilib. Məzarlıqdan nadir tapıntılar - insan skeletləri, müxtəlif saxsı qablar, dəmir tunc materiallar, ox və nizə ucluqları, qılınclar, bəzək əşyaları bizi ötən yüzilliklərlə görüşdürür.

Çox təəssüf ki, nadir tapıntıların bir qismi oğurlanıb. Lerik Rayon Polis şöbəsində faktla bağlı CM-nin 183.1-ci (xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları talama) maddəsi ilə cinayət işi açılıb.

**Nadir tapıntılar və oğurluq faktı ilə bağlı oxuculara məlumat verəcəyik.**

# Sərgi maraqla qarşılanmışdır



Lerik Dövlət Rəsm Qalereyasının foyesində baş tutan sərgidə görkəmli rəsam, Azərbaycan Rəssamlar İttifaqının üzvü, Karikaturaçı Rəssamlar İttifaqının üzvü, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsinin müəllimi Şahvələd Əliyevin əsərləri nümayiş olunmuşdur.

Sərgini giriş sözü ilə açan Lerik Dövlət Rəsm Qalereyasının direktoru Mükafat Yaqubov sənətkar haqqında məlumat vermiş, sərgiyə gələn hörmətli qonaqları tamaşaçılara təqdim etmişdir. Lerikin ziyalı ağsaqqallarından olan Qəhrəman Əliyev Şahvələd müəllimin həyatından və incəsənətə marağından söhbət açmışdır. Xalq rəssamı, Dünya Rəssamlar Akademiyasının Akademiki, ADMİU-nun kafedra müdiri Xanlar Əhmədov görkəmli sənətkarın yaradıcılığı haqqında məlumat vermiş, onun əsərlərini yüksək qiymətləndirmişdir. Sonra Azərbaycanın Əməkdar rəssamı, ADMİU-nun müəllimi, dosent Həmzə Abdullayev çıxış etmişdir. H. Abdullayev Şahvələd müəllimin bir yaradıcı insan kimi mənəvi keyfiyyətlərindən söhbət açmışdır. ADMİU-nun müəllimi, Rəssamlar İttifaqının üzvü, Dünya Rəssamlar Akademiyasının həqiqi üzvü Səmədağa Cəfərov da sənətkar haqqında danışmış, yaradıcılığının incəliyindən, sənətkarın yorulmadan çalışaraq fədakarlıq etdiyindən söhbət açmışdır. Sonda sənətkarın özünə söz verilmişdir. Şahvələd müəllim Lerik Rayon İcra Hakimiyyətinin başçısına, müavinlərinə, mədəniyyət və qalereya işçilərinə sərginin təşkilinə kömək etdiklərinə görə təşəkkür etmiş, yaradıcılığından və gələcək planlarından danışmışdır.

Sonra tamaşaçılar sərgi salonunda istedadlı rəssamın əl işləri ilə tanış olmuş, xatirə kitabına öz ürək sözlərini yazmışlar.

Fərdi sərgidə istedadlı sənətkarın, əsasən, rəngkarlıq və karikatura janrında çəkilmiş əl işləri nümayiş olunmuşdur. İstedadlı rəssamın rəngkarlıq əsərləri və karikaturaları tamaşaçıların çox xoşuna gəlmişdir.



Sərgiyə üç gün ərzində 350-dən çox tamaşaçı baxmışdır.

***Mükafat Yaqubov,***
***Lerik Dövlət Rəsm Qalereyasının direktoru***

# Ölüm sevinməsin qoy



Rayonumuzun ictimaiyyətinə ağır itki üz vermişdir. Gözəl insan, dəyərli insan Zöhrab Əli oğlu Rüstəmov 88 yaşında vəfat etmişdir.

Zöhrab Əli oğlu Rüstəmov 1929-cu ildə anadan olmuşdur. Atası Əli Rüstəmov Lerik rayon rabitə şöbəsinin və rayon torpaq şöbəsinin, rayon İcraiyyə Komitəsinin sədri işləmişdir.

Zöhrab Rüstəmov yeddillik məktəbi Mistan kəndində bitirmiş, sonra ailəsi birlikdə Lerikə köçmüşdür. Zöhrab Rüstəmov 1947-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olmüş və ali təhsilini uğurla başa vurmuşdur. Təyinatla rayona göndərilmiş, Lerik orta məktəbində 16 il müəllim, sonra isə dərs hissə müdiri işləmişdir. 1966-cı ildə qiyabi orta məktəbə rəhbərlik etmişdir.

Lerik Rayon Partiya Komitəsinin keçmiş birinci katibi Samid Qulamovun təklifi ilə Zöhrab Rüstəmov Lerik rayon Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri təyin olunmuşdur. O, Ali Pariya Məktəbini bitirmiş, rayona qayıdaraq təlimatçı işləmişdir. Büronun qərarı ilə təşkilat şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir. İşlədiyi müddətdə "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində çoxlu məqaləsi çap olunmuşdur.

Təqaüdə çıxana kimi 6 il Lerik rayon mədəniyyət şöbəsinə rəhbərlik etmişdir. O, milli-mənəvi dəyərlərimizin qorunmasına böyük diqqət yetirmişdir.

Rayonun ictimai-siyasi, mədəni həyatında fəallıq göstərmiş, ziyalılar arasında, cəmiyyətdə hörmət, nüfuz sahibi olmuşdur.

Zöhrab Rüstəmov uzun sürən ağır xəstəlikdən sonra dünyasını dəyişmişdir. Onun işıqlı xatirəsi dostlarının, yaxınlarının, ziyalıların hafizəsindən uzun müddət silinməyəcəkdir. Allah rəhmət eləsin.

# Kömək göstərilir

Monidigah kənd sakini Fail Rəhimovun 2 otaqlı evi yanıb yararsız hala düşmüşdü. Bu xəbərdən hamı sarsılsa da kəndin ağsaqqalları, xeyirxah insanları yığışıb yanan evi bərpa etmək qərarına gəldilər.

Kənd sakinlərinin və Lerik RİH-in dəstəyi ilə yanan evin bərpası işlərinə başlanılıb. F.Rəhimov ona kömək göstərənlərə minnətdarlığını bildirib.

# Yarımçıq tikinti

2014-cü ildə Noda kəndinin mərkəzində yeni uşaq bağçasının bünövrəsi qoyulanda sakinlər çox sevindilər. 50-min manata qədər iş görüldü. Lakin bu sevinc çox çəkmədi.

Müasir tipli uşaq bağçasının tikintisi üçün Nazirlər Kabineti 300 min manat vəsait ayırmağı nəzərdə tutmuşdu. Vəsaitin verilməsi dayandırıldı, tikinti yarımçıq qaldı. Nodalı camaatın, valideynlərin, körpələrin gözləri yolda qaldı.

Uşaq bağçasının işçilərini də uşaq bağçasının tikintisinə nə vaxt başlanacağı çox düşündürür. Onlar ümidlərini itirməyiblər, inşaatçıların yolunu gözləyirlər...

# Yiyə duran yoxdur

Günəşli kəndində həllini tapmayan məsələlərdən biri də kəndin mərkəzindəki damı sökülmüş binadır. Əvvəllər mağaza kimi istifadə olunub. İstifadəsiz qaldığını görüb köhnə binanın yerində dini ibadət ocağı tikməyi qərara alıblar. Lakin torpaq-layihə sənədləşməsi düzgün aparılmadığından tikintini qanunamüvafiq formada aparmaq mümkün olmadı.

İndi yarısökülmüş (şəkildə) tikiliyə sahib duran yoxdur. Kənd bələdiyyəsi də özünü bu işdən yan verir. Axırı necə olacaq, bilinmir.

***Lerik"***

# Qayıt insanlığa

Əzəldən düşmənsən Azərbaycana,
Sən körpə Zəhranı boyadın qana.
Arayıb, axtardın daim bəhanə,
Düşmən, qan tökməkdən doymamısanmı?

Daim sən yurduma oldun təhlükə,
Qopartdın yurdumu sən tikə-tikə.
Bu gün Füzulidə açdın mərəkə,
Faşist, qan tökməkdən doymamısanmı?

Dünya xəbərdardır pis əməlindən,
Ömürlük yaxşılıq gəlməz əlindən.
Baş kəsmək, qan tökmək gəlir əlindən,
İblis, qan tökməkdən doymamısanmı?

İşğalda saxladın sən Qarabağı,
Xain, hədəf seçdin körpə uşağı.
Dünyaya yayıldı ölüm sorağı,
Qatil, qan tökməkdən doymamısanmı?

Böyük Xocalıda qırğın törətdin,
Neçə günahsızı sən qəltan etdin.
Sən körpə Zəhranı qətlə yetirdin,
Düşmən, qan tökməkdən doymamısanmı?

Türklüyü əlində etdin bəhanə,
Nənəylə, nəvəni boyadın qana.
Tökdüyün qanlara susdu zəmanə,
Nahaq qan tökməkdən doymamısanmı?

Qayıt insanlığa, əqidən olsun,
Natəmiz vicdanın qənimin olsun.
Qisasçı əməllər qəlbində solsun,
Tökdüyün qanlardan utanmırsanmı?

***Muradəli Hüseynov,***
***Bradi kəndi***

Elan

# Ödəyicilərinin nəzərinə!

## Bildiriş-Müraciət




Bildiririk ki, Azərbaycan Respublikasının Konstitusiyasının 73-cü maddəsinə əsasən qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.

Vergi Məcəlləsinin 16-cı maddəsinə əsasən qanunla müəyyən edilmiş vergilərin ödənilməsi, gəlir və xərclərin uçotunun aparılması, vergi hesabatlarının təqdim edilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Eyni zamanda, vergi öhdəliklərini tam həcmdə və vaxtında yerinə yetirməyən, o cümlədən vergini hesabatda göstərilməli məbləğə nisbətən azaldan və büdcəyə çatası vergi məbləğini hesabat təqdim etməməklə vergidən yayınan şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri tətbiq edilir.

Vergi Məcəlləsinin 23.1.15-3-cü maddəsinə əsasən vergi ödəyicisi vergi öhdəliyini müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə, vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün vergi orqanı məhkəməyə müraciət etmək hüququna malikdir.

Digər tərəfdən, Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən isə xeyli və ya külli miqdarda vergiləri ödəməkdən yayınma cinayət əməli hesab olunur.

Xatırladırıq ki, təqdim etdiyiniz bəyannamələrdə gəlirləriniz barədə müvafiq məlumatları düzgün əks etdirmədiyiniz halda, Vergi Məcəlləsinin 67-ci maddəsinə əsasən əlaqəli məlumatlardan istifadə edilməklə müəyyənləşdirilmiş faktiki gəlir məbləğləri təqdim olunmuş bəyannamələrin göstəriciləri ilə üzləşdiriləcək və vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla şəxsi vərəqənizə bərpa olunacaqdır.

Odur ki, fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməklə vergi öhdəliklərinizi vaxtında və tam şəkildə yerinə yetirməyiniz Sizə tövsiyə olunur!

Əlavə məlumat almaq üçün qeydiyyatda olduğunuz vergi orqanına və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

***Azərbaycan Respublikası***
***Vergilər Nazirliyi***

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika"
MMS mətbəəsində hazır
diapozitivlərdən
çap olunmuşdur

